Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**



# Mənəvi sərvətimiz - Fikrət Əmirov

**Fikrət Əmirovun 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2017**

**Tərtibçilər:** **Könül Ağazadə**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Mənəvi sərvətimiz - Fikrət Əmirov:** metodik vəsait / tərt.ed. K.Ağazadə; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.-40s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

> Əsl sənət fitri istedad və zəhmət tələb edir. İstedad bir aləmdir, zəhmət bir aləm. Bu iki aləm bir-birinə qovuşanda milli sənət ümumbəşəri sənət səviyyəsinə yüksəlir.
>
> **Fikrət Əmirov**

Bu fikir tam mənada Fikrət Əmirovun öz yaradıcılığına şamil oluna bilər. Çünki o, istedadın və zəhmətin sayəsində yüksələ bilmişdir. Fikrət Əmirovun əsərləri buna gözəl nümunədir. Belə ki, bəstəkarın simfonik muğamları və digər əsərləri dünyanın müxtəlif ölkələrində səslənərək həm müəllifin, həm də Azərbaycanımızın adını yüksək zirvələrə qaldırmışdır. Onun əsərləri peşəkarlar tərəfindən daim yüksək qiymətləndirilmiş və böyük xalq məhəbbəti ilə qarşılanmışdır. Yaradıcılığının ilk dövrlərindən uğurlara nail olan Fikrət Əmirov üçün sevgi və məhəbbət məfhumu onun özü kimi əbədiyaşardır. Xalq öz müdrik sənətkarını əbədi məhəbbətlə sevir və onun əsərlərindən mənəvi güc alır.

İnsanlara öz musiqisi ilə mənəvi zənginlik aşılayan Fikrət Əmirovun irsi çoxşaxəlidir. Bəstəkarın əsas qayəsi milli köklər zəminində professional əsərlər yaratmasıdır. O, şifahi ənənəli klassik musiqi janrı olan muğam dəstgahlara müraciət edərək "simfonik muğam" janrını yaratmışdır. Fikrət Əmirov bu yaradıcılıq işi ilə dünya musiqisində heç bir analoqu olmayan yeni bir janr yaratdı. Onun yaratdığı "simfonik muğam" janrı digər bəstəkarlar üçün də bir yaradıcılıq mənbəyi oldu.

Fikrət Əmirov pedaqoq və ictimai xadim kimi də mədəniyyətimizə gözəl töhfələr bəxş edib. Yaradıcılığında olduğu kimi, ictimai fəaliyyətində də Fikrət Əmirovun öz yeri, öz dəst-xətti var. Xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilən sənətkarın ən böyük mükafatı ona olan xalq məhəbbətidir. Çünki o, qazandığı bu sonsuz məhəbbətlə

əbədiyaşardır. Fikrət Əmirovun öz təbirincə desək – "Xalq məhəbbəti sənətkar üçün hər şeydir".

2017-ci ilin noyabr ayında görkəmli Azərbaycan bəstəkarı, tanınmış ictimai xadim, Fikrət Əmirovun anadan olmasının 95 illiyi qeyd olunur. Bu münasibətlə respublikamızın müxtəlif təhsil ocaqlarında, həmçinin kitabxanamızda tədbirlər keçirilməsi nəzərdə tutulmuşdur.

Fikrət Əmirovun yubileyi ilə bağlı tərtib olunan bu vəsait iki bölmədən ibarətdir. Birinci bölmə bəstəkarın həyat və yaradıcılığından, ikinci bölmə isə yubileyi ilə bağlı keçiriləcək tədbirlərdən bəhs edilir. Hazırladığımız bu metodik vəsait yalnız musiqi ictimaiyyəti üçün deyil, geniş oxucu auditoriyasının istifadə edə biləcəyi bir vəsait olacaq.

## Böyük Azərbaycan bəstəkarı

Gələcəyin böyük siması olan Fikrət Əmirovun ömrü və sənət taleyi 1922-ci il noyabr ayının 22-dən qədim Gəncə torpağında məşhur musiqiçi Məşədi Cəmil Əmirovun ailəsindən başlayır. Fikrət Əmirovun milli musiqini mənimsəməsində onun böyüyüb, boya-başa çatdığı mühitin müstəsna rolu olub. Çünki bəstəkarın böyük musiqiçi kimi yetişməsində fitri istedadı ilə bərabər atası Məşədi Cəmilin də böyük təsiri olmuşdu. Musiqimizin beşiyi sayılan Şuşada doğulan, dövrünün məşhur tarzəni kimi tanınan Məşədi Cəmil İstanbulda professional musiqi sənətinə yiyələnmiş, bir sıra musiqi alətlərində ifa etməyi öyrənmişdi. Məşədi Cəmil Əmirov İstanbuldan qayıtdıqdan sonra Gəncədə yaşamağa başlamışdı. 1912-ci ildə "Heyratı" muğamını nota yazaraq "Şəhbalı" jurnalında çap etdirən ustad, həmçinin Riqa şəhərindəki "Qrammofon" şirkətində bir sıra muğam və xalq mahnılarını vala yazdırmışdı. Bəstəkarlığa da meyl göstərən sənətkar 1915-ci ildə "Seyfəl-Mülk" adlı opera yazaraq tamaşaya hazırladı. 1923-cü ildə Gəncədə ilk musiqi məktəbinin yaradıcısı da Məşədi Cəmil olmuşdur. O, məktəbə direktor təyin ediləndən sonra Üzeyir Hacıbəylinin iştiraki ilə tədris ocağının təntənəli açılışı oldu. Üzeyir bəy musiqi məktəbinin tədris planlarının hazırlanmasında, məktəbə Moskvadan, Kiyevdən, Sankt-Peterburqdan ali musiqi təhsili olan müəllimlərin dəvət edilməsində Məşədi Cəmil Əmirova yaxından köməklik göstərmişdir. Böyük sənət eşqi ilə direktor kimi işə başlayan sənətkar bəstəkarlıq fəaliyyətini də davam etdirirdi. 1923-cü ildə bəstəkarın "Namuslu qız" operettası Gəncədə tamaşaya qoyuldu. İlk tamaşada Ü.Hacıbəyli şəxsən iştirak etmişdi.

İstedadlı sənətkar Məşədi Cəmil Əmirov 1928-ci ildə Gəncə şəhərində vəfat etmişdir. Onun zəngin irsi bu gün də Azərbaycan milli mədəniyyətinin əvəzsiz sərvətidir.

XX əsrin əvvəllərində Azərbaycan musiqi mədəniyyətinə gözəl töhfələr bəxş edən məşhur sənətkar Məşədi Cəmil Əmirovun ailəsində böyüyən Fikrət Əmirov üçün həyat o qədər də asan olmayıb. Erkən yaşından atasını itirdiyinə görə çox çətin yollardan keçmiş, anası Dürdanə xanım 6 övladını tək böyütməli olmuşdur. Yalnız ana nəvazişinə sığınan övladlar, o cümlədən balaca Fikrət yaşadıqları çətinliklərə baxmayaraq, elmə, sənətə sıx bağlanaraq Məşədi Cəmilin layiqli varisləri kimi böyümüşdürlər. Fikrət Əmirov atasının sənət yolunu davam etdirərək onun arzu və istəklərini daha yüksək səviyyədə həyata keçirməyə nail olmuşdur. O, oxuduğu məktəbin tədbirlərində fəal olmaqla yanaşı, Bakıda, Gəncədə keçirilən uşaq olimpiadalarında da iştirak etmişdir. Bəstəkar 1930-cu illərdə dahi Üzeyir Hacıbəylinin təşəbbüsü ilə Gəncədə təşkil olunmuş ansambla tar ifaçısı kimi daxil olmuşdur. Professional musiqiçi olmaq məqsədilə 1938-ci ildə Bakıya gəlmişdir.

F.Əmirov 1939-cu ildə Bülbülün və Üzeyir Hacıbəylinin məsləhəti ilə Azərbaycan Dövlət Konservatoriyasına daxil oldu. Fikrət Əmirov Dövlət Konservatoriyasına daxil olduqdan sonra əsl yaradıcılıq fəaliyyətinə başladı. O, bir tərəfdən müxtəlif sənət məbədlərinə - Dövlət Filarmoniyasına, Opera və balet Teatrına, Bəstəkarlar İttifaqına rəhbərlik edir, digər tərəfdən musiqi tariximizin solmayan səhifələrini yazırdı. Musiqidə elə bir janr yox idi ki, bəstəkar ona müraciət etməsin. F. Əmirov operanın, baletlərin, simfoniyaların, simfonik muğamların, simfonik poemaların, süitaların, kapriççionun, fortopiano üçün konsertlərin, musiqili komediyaların, mahnı və romansların müəllifidir.

Fikrət Əmirov musiqisinin böyük şöhrət tapmasının əsas səbəblərindən biri onun dərin milli zəminə bağlılığıdır. Milli musiqi mədəniyyətinin ilk mənbələrinə yaxınlıq və folklor musiqisinin ülvi surətdə klassik formalara sintezi Fikrət Əmirovu Üzeyir Hacıbəyli ənənələrinin bilavasitə davamçısı kimi səciyyələndirməyə imkan verir. O, Üzeyir Hacıbəylinin

ənənələrini davam etdirməklə, ölkəmizin musiqi mədəniyyətinin inkişafında böyük rol oynamışdır.

Fikrət Əmirov xalqın musiqi dilini, musiqi təfəkkürünü elə dəqiqliklə dərk edirdi ki, onlar bəstəkarın öz üslubunun, musiqi dilinin elementlərinə çevrilirdi. Janrından asılı olmayaraq, Fikrət Əmirovun əsərlərində melodiyanın böyük rolu da onun musiqisinin ən mühüm üslub xüsusiyyəti lirikanın üstünlüyü ilə bağlıdır. Fikrət Əmirovu həm simfonik orkestr üçün musiqi, həm də səhnə musiqisi cəlb edirdi. Onun səhnə musiqisi sahəsində ilk örnəkləri "Ürək çalanlar" və "Gözün aydın" operettaları bəstəkarın lirik əhvali-ruhiyyəsinin düşkünlüyünün, istedadının parlaq melodik təbiətini göstərirdi. Eyni zamanda, bu operattalar Fikrət Əmirovun parlaq və geniş musiqi xarakteristikalarına meyilli olduğunu da nümayiş etdirirdi. Məhz buna görə də, onun operettalarındakı bir çox mahnılar melodiyasının zənginliyinə, səmimiliyinə və milli zəminə bağlığına görə böyük şöhrət qazanmışdır.

Yaradıcılığında mühüm yer tutan simfonik əsərlərdə Fikrət Əmirovun fərdi, özünəməxsus üslubu aydın şəkildə özünü göstərir. Xatırlayaq ki, simli orkestr üçün "Nizami" simfoniyası Fikrət Əmirovun bu sahədə gələcək uğurlarını təsdiqləyən əsərlərdən biri olmuşdu. Əsər 1947-ci ildə yazılıb və həmin ildə də Nizaminin 800 illik yubileyinin keçirildiyi Moskvanın P.S.Çaykovski adına salonunda ilk dəfə olaraq dirijor N.P.Anasovun idarəsilə səslənib. Simfoniyada əbədi sənət çeşmələrindən, bitib-tükənməyən qaynaqlardan bəhrələnən sənətkar Nizaminin xalq ruhu ilə mayalanmış əlvan poeziyasını, şairin nurlu obrazını özünün bu bənzərsiz əsərində əsl bəstəkar qəlbiylə ifadə etmişdir. Bəstəkar bu simfoniyadan sonra süitalar, rapsodiyalar, simfonik muğam kimi yeni formalı əsərlər yazmışdır. O, "Şur", "Kürd ovşarı" və "Gülüstan-Bayatı Şiraz" simfonik muğamları ilə simfonik musiqi tarixində qeyri-adi bir yeniliyin müəllifi kimi mədəniyyət tariximizin təzə səhifələrini yazdı. Müdrik təfəkkürün və qeyri-adi dərəcədə zərif hiss və

duyğuların sintezindən doğulmuş bu qiymətli sənət inciləri Fikrət Əmirova təkcə Azərbaycanda deyil, dünyada misilsiz şöhrət qazandırdı. Təsadüfi deyil ki, hələ 26 yaşlı bir gənc ikən o, həmin qiymətli əsərlərə görə SSRİ Dövlət mükafatı laureatı kimi şərəfli bir ada layiq görüldü. “Şur” və “Kürd ovşarı” ABŞ-ın Hyüston və Texas ştatlarında səslənərkən Birləşmiş Ştatların ən məşhur bəstəkarları belə öz heyrətlərini gizlədə bilməmiş, bu cür qüdrətli bir sənətkarla şəxsən görüşüb söhbətləşməkdən məmnun olacaqlarını bəyan etmişdilər. Elə həmin vaxt SSRİ nümayəndə heyətinin ABŞ-a səfəri bu görüşə geniş imkan yaradır. Nümayəndə heyətinin tərkibinə musiqi dünyasının D.Şostakoviç, T.Xrennikov və D.Kabalevski kimi nəhəng korifeyləri ilə birlikdə Fikrət Əmirov da daxil edilir. ABŞ-ın paytaxtı Vaşinqtonda keçirilən ilk konsertdə Fikrət Əmirovun dünyanın ən məşhur musiqiçilərindən biri olan Leonid Stakovskinin dirijorluğu ilə Baston simfonik orkestrnin ifasında səslənən “Kürd ovşarı” simfonik muğamı dinləyiciləri məftun etmişdir. Həmin nümayəndə heyətinin tərkibində olan məşhur musiqiçilər qeyd edirdilər ki, “Kürd ovşarı”nın son akkordları çalınanda artıq bütün zal ayaqüstə idi. Bu, Azərbaycan musiqisinin ecazkarlığına, Fikrət Əmirov sənətinin böyüklüyünə olan hörmət və ehtiramın təntənəsi idi.

Fikrət Əmirov vaxtilə dünyaya Hafiz və Sədi kimi qüdrətli poeziya ustadları bəxş etmiş qədim Şiraz şəhərində olarkən bu yerin əfsanəvi gözəlliyi onu elə sehrləmişdi ki, məhz bu sehr “Gülüstan-Bayatı Şiraz” adlı üçüncü simfonik muğamın doğuluş mənbəyi olmuşdur. “Gülüstan” Sədinin məşhur əsərinin adıdır. Şiraz isə Sədi və Hafizin yaşadığı şəhərin adıdır. Əsər ilk dəfə Moskvada VII Beynəlxalq Musiqi Konqresində SSRİ Dövlət Simfonik Orkestri tərəfindən ifa olunmuşdur.

Fikrət Əmirovun simfonik muğamlarından başqa Azərbaycanın hüdudlarından uzaqlarda şöhrətlənmiş əsərlərindən “Azərbaycan” simfonik suitasını, “Azərbaycan kapriççiosu”nu, “Azərbaycan qravürləri”ni göstərə bilərik.

Onun “Azərbaycan kapriççosu” parlaq, milli ruhda bir əsər olub, özünəməxsus təzadlı lövhələrdən qurulmuşdur. Çox melodik, rəngarəng, temperamentli musiqisi ilə seçilən bu əsər yüksək dərəcədə zövqlü orkestr palitrası ilə fərqlənir. “Kapriçço”nun mərkəzi mövzusu geniş, möhtəşəm xarakterli olub rast ladında səslənir. Bu mövzu Azərbaycanın təbiət gözəlliklərini tərənnüm edir.

Bəstəkarın böyük istedad və yüksək professionalıqla qələmə aldığı əsərlərdən biri də “Sevil” operasıdır. “Sevil” operası bəstəkarın səhnə əsərləri üçün bəstələdiyi musiqilərin ən parlaq zirvəsidir. 1953-cü ildə ilk dəfə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşaya qoyulan “Sevil” məhz opera sənətimizdə yeni parlaq səhifə açdı. XX əsr Azərbaycan operaları sırasında “Koroğlu”dan sonra məhz “Sevil” möhtəşəm sənət əsəridir. “Sevil”ə öz yaradıcılıq təxəyyülü ilə gəlib çıxan Fikrət Əmirov Azərbaycan musiqili teatrı sahəsində, ilk dəfə olaraq müasir mövzuda lirik operanı yaratmağa nail olmuşdur. F.Əmirov bu operanı yazan zaman belə bir açıqlama verir: “Mən operada Cəfər Cabbarlının dediklərini musiqi vasitəsilə vermək istəyirəm”. Bu əsər opera teatrının səhnəsində tamaşaçıların qəlbini fəth edərək, ümumxalq məhəbbəti qazanmışdır.

Fikrət Əmirovun musiqi tariximizdə rolu bəllidir. Hər şeydən əvvəl o, bizim mədəniyyətimizdə iki nəhəng musiqi abidəsi ucaldıb. Bunlardan biri “Sevil” operası, ikincisi isə müəllifinə dünya şöhrəti gətirmiş “Min bir gecə” baletidir. “Min bir gecə” baleti təkcə Azərbaycan musiqisinin deyil, bütün dünya mədəniyyətinin incilərindən sayılır. Bu baletdə Azərbaycan təranələri ilə bərabər, ərəb musiqisinin intonasiya və ritmlərindən də istifadə olunmuşdur. Fikrət Əmirovun öz sağlığında bu balet dünyanın bir çox möhtəşəm konsert salonlarında dəfələrlə ifa olunmuşdu.

Fikrət Əmirov iri, orijinal musiqi əsərlərinin müəllifi olmaqla bərabər, həm də gözəl mahnılar yazırdı. Unudulmaz ifaçılarımız Rəşid Behbudov, Şövkət Ələkbərova və başqaları onun

nəğmələrini şövqlə oxuyardılar. Fikrət Əmirovun ruhundan qida almış o nəğmələr indi bizim retro mahnılarımızdan sayılır. “Gülərəm gülsən”, “Mən səni araram”, “Reyhan”, “Gülür ellər”, “Fortepiano üçün 12 miniatür”, “Ulduz”, “Azərbaycan elləri”, “Gülüm”, “De görüm neyləmişəm”, “Toy” kimi romans və mahnıları, neçə-neçə pyes-prelüdləri, dram-tamaşalarına, kinofilmlərə (“Böyük dayaq”, “Səhər”, “Mən ki gözəl deyildim”) yazdığı lirik, dinamik, dramatik musiqiləri hələ də məşhurdur.

Hələ gənc yaşlarından Nizami poeziyasına olan marağı bəstəkarın yaradıcılığında xüsusi yer tutur. O, “Nizami” simfoniyası ilə kifayətlənməyərək dahi şairin həyat və yaradıcılığını əks etdirən balet üzərində gərgin işləyir və 1984-cü ilin yanvarında “Nizami” baletini tamamlayır.

Fikrət Əmirovun Azərbaycan mədəniyyəti tarixindəki yeri müstəsnadır. O, sadəcə bir bəstəkar kimi deyil, xalqını, vətənini bütün varlığı ilə sevən, əsl şəxsiyyət zirvəsində duran layiqli vətəndaş və ictimai xadim kimi böyük xidmətlər göstərmişdir. Onun bu xidmətlərini xalq da, dövlət də yüksək qiymətləndirilmişdir. Belə ki, 1958-ci ildə Azərbaycanın Xalq artisti, 1965-ci ildə SSRİ Xalq artisti, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, 1982-ci ilin may ayında Sosialist Əməyi Qəhrəmanı fəxri adlarına layiq görülmüşdür. Bunlardan başqa, bəstəkar o dövr üçün daha əlamətdar olan “Lenin” ordeni, iki dəfə “Qırmızı Əmək Bayrağı” ordenləri və qızıl medalla təltif edilmişdir.

Bəstəkar həmişə öz yaradıcılığı üçün ilham mənbəyi olan xalqla birlikdə olmuşdur. O, tez-tez təhsil ocaqlarında, respublikamızın bölgələrində zəhmətkeşlərlə, görüşlər keçirər, konfrans və qurultaylarda iştirak edər və öz çıxışları, dolğun fikirləri ilə mədəniyyətimizin inkişafı üçün çalışardı.

1984-cü ildə bəstəkar bölgələrdəki seçiciləri ilə görüşə gedərkən bərk xəstələnmişdi. Elə həmin il fevralın 20-də ürək çatışmazlığından dünyasını dəyişmişdi.

Fikrət Əmirov yaradıcılığı ulu öndərimiz Heydər Əliyevin həmişə diqqətində olmuşdur. Bəstəkarın anadan olmasının 80 illik yubileyi münasibətilə onun imzaladığı sərəncam Azərbaycan mədəniyyətinə, sənətə və sənətkara qayğının, diqqətinin bariz nümunəsidir. Sərəncamda Fikrət Əmirovun seçilmiş əsərlərinin beşcildliyinin və bəstəkar haqqında kitabın nəşr olunması, habelə həyat və yaradıcılığına dair sənədli filmin çəkilişinin təmin olunması qeyd olunur.

Fikrət Əmirovun adını əbədiləşdirmək üçün Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblına, Bakı şəhərindəki küçələrdən birinə onun adı verilmişdir.

## Yubiley tədbirlərinin keçirilməsi

Bu il noyabr ayında görkəmli SSRİ Xalq artisti, tanınmış ictimai xadim, dünya şöhrətli bəstəkarımız Fikrət Əmirovun 95 illik yubileyi qeyd olunur. Bu münasibətlə respublikamızın müxtəlif təhsil ocaqlarında, liseylərdə, kitabxanalarda, gimnaziyalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə şairin kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur. Sərgi müxtəlif başlıqlarda ola bilər: “Əbədi varlığımız milli sərvətimiz”, “Böyük Azərbaycan bəstəkarı”, “Dünya şöhrətli bəstəkarımız”, “Mənəvi sərvətimiz - Fikrət Əmirov”, “İlhamlı nəğməkar”, “Musiqi ilə doğulanlar əbədi yaşardırlar”, “Azərbaycan musiqisinin korifeyi – Fikrət Əmirov”, “Zirvəyə gedən yol”, “Ustad sənətkar - Fikrət Əmirov”, “Zəmanəmizin böyük bəstəkarı”, “Dahi bəstəkarın düşüncəsi”, “Azərbaycan musiqisinin iftixarı”, “Dahilər ölmür”, “Çoxcəhətli istedad”, “Musiqimizin böyük dayağı – Fikrət Əmirov” və s.


Fikrət Əmirov


PAŞA
Bank
FİKRƏT ƏMİROV
SİMFONİK MUĞAMLAR


FİKRƏT ƏMİROV
MAHNI VƏ ROMANSLARI


AZƏRBAYCANIN GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİ
FİKRƏT ƏMİROV
BİBLİOQRAFİYA


ФИКРЕТ АМИРОВ
СИМФОНИЧЕСКИЕ МУГАМЫ


Min Bir Gecə

**Görkəmli şəxslərin Fikrət Əmirov haqqında söylədikləri:**

Fikrət Əmirovun yüksək sənətkarlıqla bəstələdiyi əsərlər dünyanın məşhur dirijorlarının repertuarına daxil olmuş, bir çox xarici ölkələrin konsert salonlarında səslənərək Azərbaycan musiqi sənətinə böyük şöhrət gətirmişdir.

**Heydər Əliyev,**
*ümummilli lider*

Azərbaycanın musiqi sənəti tarixinə parlaq səhifələr yazmış Fikrət Əmirovun musiqinin ən müxtəlif janrlarını əhatə edən çoxsaylı əsərləri, o cümlədən opera, balet, simfoniya, mahnı və romansları xalqımızın mədəni sərvətlər xəzinəsinin qızıl fondunda xüsusi yer tutur. Böyük bəstəkar milli musiqimizin zəngin ənənələri ilə dünya musiqi mədəniyyətinin mühüm nailiyyətlərinin qovuşuğunda misilsiz sənət inciləri meydana gətirmişdir. Bəstəkarın dünyanın ən iri konsert salonlarında mötəbər orkestrlərin ifasında səsləndirilən simfonik muğamlarının Azərbaycan mədəniyyətinin tanıdılmasında müstəsna rolu vardır.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Fikrət Əmirov təkcə bizim respublikanın deyil, dünyanın qabaqcıl, istedadlı bəstəkarlarındandır. Onun adı ölkənin hüdudlarından çox-çox uzaqlarda məşhurdur. O, bizim musiqi həyatımıza daxil olmuş bir çox parlaq, istedadlı əsərlərin müəllifidir.

**Qara Qarayev,**
*bəstəkar*

Azərbaycan xalq musiqisinə yaxşı bələd olan Fikrət Əmirovun müvəffəqiyyəti çox böyükdür. "Sevil" operası müəllifin tükənməz xalq muğamlarımızın xəzinəsindən aldığı və məharətlə istifadə etdiyi cazibəli melodiyalarla zəngindir. Xalq musiqisi opera üçün çox zəngin musiqi materialı olmuşdur.

**Səməd Vurğun,**
*Xalq şairi*

Fikrət Əmirov doğma torpaqdan start götürmüş, zirvədən-zirvəyə ucalmış Sovet Azərbaycanının bəstəkarlıq şöhrətini qitədən-qitəyə yaymışdır.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı*

İlk növbədə bəstəkarın fövqəladə qiymətli keyfiyyətini qeyd etmək istərdim – o, səhnə xüsusiyyətlərini çox gözəl duyur, bu da opera yazan bəstəkar üçün çox önəmlidir. Xüsusən operanın dramatik səhnələrində Əmirovun musiqisi böyük ifadə gücünə malikdir.

**Dmitri Şostakoviç,**
*bəstəkar*

Mən Fikrət Əmirovun "Şərq simfonizmi"nin böyük yaradıcı təcrübəsini, sovet şərqi xalqlarının simfonizmini yaratmaq uğrunda keçdiyi böyük yolun dəyərini, mənasını qiymətləndirməkdə çətinlik çəkirəm. Mən hətta nəyə üstünlük verəcəyimi bilmirəm-müəllifin böyük poetik istedadına, yoxsa onun getdiyi bu fədakar yola. Onun yaradıcılıq gəmisi indi sənət axtarışları dənizində çox düzgün istiqamətlə gedir".

**Boris Yarustovski,**
*musiqişünas*

Böyük və unudulmaz bəstəkarımız öz istedadının sayəsində sənətdə elə bir zirvənin sahibi olub ki, onun musiqisi yurdumuzun dağı, daşı, çayı, dənizi kimi əbədidir.

**Flora Xəlilzadə,**
*jurnalist*

Böyük bəstəkarımız Fikrət Əmirovun ürəkləri riqqətə gətirən musiqisi, qəlboxşayan melodiyaları, yüksək bədii səviyyəli müxtəlif janrlı əsərləri onun ömrünü əbədi edəcək, sorağını əsrlərdən-əsrlərə aparacaqdır.

**Ramiz Zöhrabov,**
*Əməkdar incəsənət xadimi, professor*

Gözəllik və ağıl, dərinlik və orijinallıq, məna və aydınlıq – Fikrət Əmirov musiqisinin ruhunu, canını təşkil edən əsas keyfiyyətlərdəndir.

**Əliağa Kürçaylı,**
*Xalq şairi*

Mən bulaq gördüm. Saf və şəffaf bir bulaq. Əmirovun mahnıları saf və təravətlidir. Mən çinar gördüm. Başı göyləri yaran, kökləri torpaqda dayanan bir çinar. Bu gün Əmirovun sənət çinarının göylərə ucalması onun doğma torpağa bağlılığıdır.

**Nəbi Xəzri,**
*Xalq şairi*

Fikrət Əmirov milli və professional musiqimizin böyük dayağıdır. Bu dayaq Fikrət Əmirovun ölməz musiqisidir ki, o, bütün nəsillərə örnək olacaq. İnsanları daim mənəvi saflığa və vətənpərvərliyə səsləyəcək.

**Səadət Təhmirazqızı,**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Fikrət Əmirovun “Şur” və “Kürd-Ovşarı” simfonik muğamları məni vəcdə gətirərək, qarşımda Şərqin dərin və parlaq sənətini açdı.

**Erik Stal,**
*Danimarka musiqişünası*

Fikrət Əmirovun “Azərbaycan kapriççiosu” çox bayramsayağı bir əsər olub, xalq şənliyini ifadə edərək, nikbinliyi və musiqi dilinin təravətliliyi ilə diqqəti çəkir.

**Natali Raxlin,**
*SSRİ Xalq artisti, dirijor*

“Sevil” operası, şübhəsiz, bəstəkar Fikrət Əmirovun böyük uğurudur. Ən dəyərlisi odur ki, müəllif Azərbaycan xalq melodiyalarına istinad edərək dünya və rus opera klassikalarının zəngin opera formaları və musiqi-dramatik priyomlarından cəsarətlə istifadə etmişdir.

**Şövkət Məmmədova,**
*Xalq artisti*

Musiqili Komediya Teatırının açılışı müvəffəqiyətli işdir, Fikrətin müvəffəqiyyətli işidir. Fikrətin müvəffəqiyyəti sevindiricidir.

**Üzeyir Hacıbəyli,**
*bəstəkar*

“Xalq üçün yazıb-yaratmaq, onunla birlikdə nəfəs alıb işləmək sənətkar üçün ən böyük səadətdir”. Fikrət Əmirovun bu sözləri onun sənət devizidir. Biz bu sözlərin təsdiqini onun yaratdığı irili-xırdalı bütün əsərlərində, onun həyatının bütün anlarında, fəaliyyətinin bütün sahələrində müşahidə edirik, görürük.

Bəstəkarın 95 illiyi münasibətilə Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında müxtəlif tədbirlər keçirilir. Belə tədbirlərdən biri də sual-cavab gecəsidir. Sual-cavab gecəsi

kitabxanaçı tərəfindən kitabxanada təşkil olunur. Kitabxanaçı əvvəl görkəmli bəstəkar haqqında məlumat verir:

İyirminci yüzillikdə milli musiqi mədəniyyətimizi təkrarsız əsərləri ilə zənginləşdirən böyük sənətkarlar yaşayıb. Şöhrəti ölkələr dolaşan bənzərsiz sənətkarlardan biri də Fikrət Əmirovdur. O, musiqini, ədəbiyyatı və tarixi çox sevərdi. Hələ 10 yaşında ikən o, gözəl tar çalar, konsertlərdə çıxış edərdi. Fikrətin uşaqlıqdan xalq musiqisinə olan hədsiz-hüdudsuz marağı ömrünün sonunadək qalmış, onun böyük bir bəstəkar kimi yetişməsinə dərin təsir göstərmişdir.

Ömrünü milli musiqimizin inkişafına həsr edən sənətkar daim yaradıcılıq axtarışında olub, musiqi sənətimizə yeni nəfəs, yeni çalarlar gətirib. F.Əmirovun rəngarəng yaradıcılığı dünyanın bir çox ölkələrində geniş tanınıb, böyük dinləyici auditoriyasının hörmət və məhəbbətini qazanıb.

Fikrət Əmirov bəstəkar olmaqla yanaşı pedaqoji sahədə də fəaliyyət göstərmişdir. Böyük bəstəkar, həmçinin mətbuatda bir sıra məqalələrlə çıxışlar edərək, ictimai işlərdə yaxından iştirak edib.

1956-cı ildə Azərbaycan Opera və Balet teatrının direktoru vəzifəsində çalışmış, Azərbaycan Bəstəkarlar İttifaqının katibi olmuşdur. O, 1947-ci ildə “Qafqaz uğrunda”, “Böyük Vətən Müharibəsində Almaniya üzərində qələbə” medalları ilə təltif edilmişdi.

Kitabxanaçı bəstəkar haqqında qısa məlumat verdikdən sonra hazırladığı sualları şagirdlərə paylayır. Həmin sualların nümunəsini sizə təqdim edirik.

**Suallar:**

**1.** Fikrət Əmirov kimdir və neçənci ildə anadan olmuşdur?
Cavab: Fikrət Əmirov **x**alqımızın böyük bəstəkarı, SSRİ Xalq artisti, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü və tanınmış ictimai xadimdir. O, 1922-ci il noyabr ayının 22-də Gəncə şəhərində məşhur tarzən və xanəndə Məşədi Cəmil Əmirovun ailəsində anadan olmuşdur.

**2.** Fikrət Əmirov hansı musiqili komediyaların müəllifidir?
Cavab: O, musiqili komediya janrında "Ürəkaçanlar", "Gözün aydın" kimi maraqlı əsərlər yaratmışdır.

**3.** Cəfər Cabbarlının eyni adlı dramı əsasında yazdığı əsər hansıdır?
Cavab: Fikrət Əmirov C.Cabbarlının eyniadlı dramı əsasında yazdığı əsər "Sevil" operasıdır. Əsər ilk dəfə 1953-cü ildə Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında tamaşaya qoyulmuşdur.

**4.** F.Əmirov hansı kinolara musiqi bəstələmişdir?
Cavab: "Böyük dayaq", "Səhər", "Mən ki gözəl deyildim", "Bir ovuc torpaq", "Üzeyir ömrü" və digər filmlərə maraqlı musiqi bəstələmişdir.

**5.** O, Konservatoriyanı bitirərkən diplom işi olaraq hansı əsəri yazmışdır?
Cavab: Bəstəkar diplom işi olaraq "Ulduz" operasını yazmışdır.

**6.** Uşaqlar üçün bəstələdiyi mahnılardan hansılarının adlarını sadalaya bilərsiniz?

Cavab: “Quzum”, “Uçdu göylərə bizim peykimiz”, “Bizim həyət”, “Qatar”, “Odlar ölkəsi” və s.

**7.** Hansı baletinə görə bəstəkar Dövlət mükafatına layiq görülmüşdür?
Cavab: 80-ci illərin əvvəllərində “Min bir gecə” baletinə görə bəstəkar Dövlət mükafatına layiq görülmüşdür.

**8.** Görkəmli bəstəkarın son əsəri hansıdır və nə vaxt yazılıb?
Cavab: Bəstəkarın son əsəri “Nizami” baletidir və XX əsrin 80-ci illərinin əvvəllərində yazılıb.

**9.** Fikrət Əmirov hansı dram tamaşalarına musiqi bəstələmişdir?
H.Cavidin “Şeyx Sənan”, C.Cabbarlının “1905-ci ildə”, S.Vurğunun “Vaqif” pyeslərinə musiqi bəstələmişdir.

**10.** Fikrət Əmirov neçənci ildə və harada vəfat etmişdir?
Cavab: O, 1984-cü ildə fevralın 20-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Kitabxanada bəstəkarın həyat və yaradıcılığından bəhs edən ədəbi-bədii gecə də təşkil etmək olar. Unudulmaz bəstəkarın xatirəsinə həsr olunmuş **“İlhamlı nəğməkar”** adlı ədəbi-bədii gecəyə müxtəlif sənət adamları, jurnalistlər, müəllimlər, musiqi məktəbinin şagirdləri dəvət olunur. Qonaqlar bəstəkarın şəkilləri ilə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin qonaqları ilk olaraq “Fikrət Əmirovun ömür yolu” slaydına baxmağa dəvət edilir. Gecəni açıq elan etmək üçün aparıcılar səhnəyə yaxınlaşırlar. Hər iki aparıcı qonaqları salamlayaraq, onlara gecədə iştirak etdikləri üçün təşəkkürlərini bildirirlər.
*I aparıcı “İlhamlı nəğməkar” adlı məruzəyə başlayır.*

**I Aparıcı:** Azərbaycan klassik musiqi sənətinin görkəmli nümayəndəsi Fikrət Əmirov ötən əsrin istedadlı bəstəkarı olaraq dərin dramatizmli əsərlər yaradaraq, milli mədəniyyətimizə yeni nəfəs əlavə etmişdir. Dünyaca məşhur olan sənətkar irsi hər zaman diqqətdədir və tədqiq olunur.

Bu il bəstəkarın anadan olmasının 95 illiyi qeyd olunur. Adətən yubileyə hazırlıq dövründə bəstəkarın yaradıcılıq yolu bir daha yada salınır, musiqi kollektivləri onun əsərlərinə müraciət edir, yubiley tədbirləri çərçivəsində konsertlər, konfranslar, xatirə gecələri keçirilir. Bütün bunlar təbii haldır. Lakin Fikrət Əmirov kimi bir sənətkar haqqında "yada salınır" ifadəsini işlətmək mümkünsüzdür. Çünki onun musiqisi xalqımızın yaddaşına əbədi həkk olunmuşdur və bu musiqiyə məhəbbət xalqın qəlbində daima yaşayacaqdır.

Fikrət Əmirov Azərbaycan bəstəkarlarının elə nəslinə mənsubdur ki, onlar bilavasitə musiqimizin patriarxı Üzeyir Hacıbəylinin xeyir-duası ilə sənət yoluna qədəm basmış, onun ideyalarının təsiri altında formalaşmış, onun yaradıcılığından bəhrələnmiş və Üzeyir bəyin açdığı yollarla inamla irəliləyib onun ənənələrini inkişaf etdirmişlər. F.Əmirovun aforizmə çevrilmiş "Biz hamımız Üzeyir məktəbindən çıxmışıq" sözləri bunun sübutudur.

**II Aparıcı:** Musiqi mədəniyyətinin görkəmli xadimləri arasında layiqli yer tutan məşhur sənətkarımız Fikrət Əmirovun yaradıcılığı geniş, bədii maraq dairəsi çoxcəhətlidir. Fikrət Əmirovun yaratdığı musiqi nümunələri nə qədər müasir texniki üslublarda yazılsa da, milli kökdən uzaq deyil. Bəstəkarın, demək olar ki, bütün əsərləri bu deyilənlərə bariz nümunədir. Biz isə bir qədər onun xalq mahnıları əsasında işləmələrindən danışmaq istərdik. Çünki Fikrət Əmirov xalq mahnılarımızı ustalıqla harmonizə edərək onlara yeni rəng qatmış və xüsusi gözəllik vermişdir.

*Bu yerdə yaxşı olardı ki, şagirdlər bəstəkarın xalq mahnıları əsasında işləmələrindən bir nümunə təqdim etsinlər. Musiqi məktəbinin ifaçıları "Küçələrə su səpmişəm" adlı mahnını səsləndirirlər.*

Küçələrə su səpmişəm,
Yar gələndə toz olmasın
Elə gəlsin, elə getsin,
Aramızda söz olmasın

Samovara od salmışam,
Stəkana qənd salmışam.
Yarım gedib, tək qalmışam,
Nə əzizdir yarın canı.
Nə şirindir yarın canı…

Fortepiano və səs üçün işlənən bu və ya digər xalq mahnıları öz orijinallığını saxlayaraq bəstəkarın musiqi təfəkkürü ilə üzvi şəkildə qovuşub əsl professional sənət nümunəsinə çevirilib. Çünki bəstəkar xalq mahnılarını işləyərkən onların üstündə çox məsuliyyətlə çalışıb. Necə deyərlər, xalqın sərvətinə ehtiyatla yanaşaraq ona öz sevgisini bəxş edib. Bu yerdə bəstəkarın öz fikirlərinə nəzər salaq. O, yazır: "Mən əvvəlcə xalq mahnılarını hiss etmişəm, sonra isə onu yaratmağı öyrənmişəm. Bəlkə, buna görədir ki, xalq musiqisi nümunələrinə müraciət etdikdə onun ahəngi və formasını mühafizə etməyə cəhd göstərmişəm".

Fikrət Əmirovun bu fikirləri həm də özündən sonra gələn bəstəkar nəslinə bir tövsiyədir, xalq mahnılarını necə sevmək və necə qorumaq yolunda bir örnəkdir. O, musiqi folklorumuzun toplanmasında yaxından iştirak etmişdir. Belə ki, Bülbülün redaktəsi və Cabbar Qaryağdıoğlunun oxusundan S.Rüstəmov, T.Quliyev və F.Əmirovun nota yazdıqları mahnılar əsasında ikicildlik "Azərbaycan xalq mahnıları" məcmuəsi yaranmışdır. Həmin məcmuələrdə Fikrət Əmirov tərəfindən bu mahnılar nota

yazılmışdır: “Xoş gəldin”, “Ay mübarək”, “Can gülüm can-can”, “Qadan alım”, “Bu gecə”, “Evləri tər-tər üstə”, “Kimin yarısan”, “Üç gündən bir, beş gündən bir”, “Süsən sünbül”, “Ay Laçın”, “Gözəlim sənsən”, “İki alma”, “A dağlar”, “Ay Sona”, “Gülə-gülə”, “Xanım sevdim əzəldən”, “Dad əlindən”, “Qız kəmərin bağlama”, “Neylərsən” və s.

*Musiqi məktəbinin sagirdi səhnəyə daxil olur. “Ay Laçın” adlı mahnını fortepianoda ifa edərək səsləndirir.*

Araz axar lil ilə,
Dəstə-dəstə gül ilə,
Mən yarımı sevirəm
Şirin-şirin dil ilə.

Bağçaları sarı gül,
Yarı qönçə, yarı gül.
Gec açıldın, tez soldun,
Olmayaydın barı, gül.

Ay Laçın, can Laçın,
Mən sənə qurban Laçın...

Yeri-yeri nişan yar,
Yeni eşqə düşən yar,
Elçiləri qırılmış...
Özü elçi düşən yar!

Alma atdım nar gəldi,
Kətan köynək dar gəldi
Qapıya kölgə düşdü,
Elə bildim yar gəldi.

Ay Laçın, can Laçın,
Mən sənə qurban Laçın...

Su atdım yara dəydi
Əlim divara dəydi.
Dilim mənim qurusun,
Nə dedim Yara dəydi.

Ey əlim oda yansin
Pərvanə o da yansın
Mən yandım yar üzündən
Eşitsin o da yansın.

Ay Laçın, can Laçın,
Mən sənə qurban Laçın...

**I Aparıcı:** Bəstəkarın əsərlərindən bəhs edərkən yaradıcılığında xüsusi yer tutan baletlərini də unutmaq olmaz. Fikrət Əmirovun balet janrında yaratdığı hər bir yeni əsəri musiqimizin uğuru, nailiyyəti olmaqla yanaşı, Azərbaycan musiqili-xoreoqrafik teatrının müxtəlif mərhələlərini əks etdirir. Bəstəkarın baletləri onun bu sahədəki yaradıcılıq axtarışlarını canlandırır, balet janrının yeni inkişaf perspektivlərinə yol açır.

1979-cu ildə səhnəyə qoyulan “Min bir gecə” baleti bəstəkarın yaradıcılığında xüsusi bir mərhələni təşkil edir. Əsər haqqında geniş danışmazdan əvvəl yaxşı olardı ki, onun bədii məzmununa nəzər salaq:

“Bir dəfə şahlardan biri – gənc və əzəmətli Şəhriyar öz sevimli arvadı ilə vidalaşdıb ova gedir. Gözlənilmədən saraya qayıdan hökmdar arvadının xəyanətini görür və bu rüsvayçılıqdan donub qalmış şahidlərin gözləri qarşısında arvadına divan tutur və bütün gənc qadınları edam etmək kimi dəhşətli bir fərman verir.

Nahaq yerə ölümə məhkum olunmuş qadınların yalvarışları hiddətli şahın qəzəbini söndürmür. Budur, qəzəb dünyasına gözəllik və müdriklik daxil olur; bu, Şəhrizaddır. Bu zaman sanki möcüzə baş verir. Şəhriyarın qəddar ürəyinə məhəbbət hisləri oyanmağa başlayır. Ancaq o, sevsə belə, qərarını dəyişmir – Şəhrizadı ölüm gözləyir. Ağlın qəzəblə, məhəbbətin nifrətlə mübarizəsi başlayır. Şəhriyar birdən-birə təslim olmaq istəmir. Əvvəlki məhəbbət və xeyirxahlığa inam yenidən əldə etmək üçün o, Şəhrizadın əsrarəngiz nağıllar dünyasına daxil olub min bir gecə keçirir".

F.Əmirovun "Min bir gecə" əsəri Azərbaycan baleti tarixində yeni mərhələ açır. Belə ki, bu əsərdə çoxpərdəli tamaşa və kiçik formalı baletlərin ənənələri birləşir. Şərq xalqlarının nadir abidəsi üzrə yaranan bu əsərin konsepsiyasından baletin dramaturgiyası doğulur. Bu əsəri musiqi dilində mahnıvari, rəqs və muğam-improvizasiyalı melodiyaları müasir musiqi elementləri ilə dolğun şəkildə, əsl ustalıqla uzlaşdırmışdır. Bütün bu cəhətlər orkestr partiyasında, ansamblların, solo alətlərin ifasında düzgün təqdim olunur. Odur ki, Fikrət Əmirovun "Min bir gecə" baletinin musiqisi şərq koloritli milli çalarları ilə əsl müasir sənət əsəridir və hər zaman da aktualdır.

**II Aparıcı:** F.Əmirovun musiqisi bir neçə kinofilmlərdə də xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bəstəkarın musiqi yazdığı kinofilmlərə tamaşa edərkən orada musiqinin bədii məzmunla sıx bağlılığının şahidi oluruq. "Azərbaycanfilm" studiyasında çəkilən və musiqisi də F.Əmirova aid olan filmləri bu gün də tamaşaçılar rəğbətlə qarşılayır.

Bəstəkarın kino sahəsində ilk işi 1960-cə ildə Mehdi Hüseynin ssenarisi əsasında rejissor Ağarza Quliyevin çəkdiyi "Səhər" filmidir. İctimai-siyasi hadisələrlə zəngin olan filmdə məhəbbət mövzusu da geniş yer tutur. Aslan ilə Sevdanın saf məhəbbəti bütün məhrumiyyətlərə qalib gəlir. Necə deyərlər, qəhrəmanın sonsuz məhəbbət mövzusu Aslanın mahnısında öz ifadəsini

tapır, hansı ki, bu mahnı da film boyu səslənir. Gəlin, mahnını dinləyək:
*Musiqinin müşayiəti ilə yuxarı sinif şagirdi "Səhər" kinofilmindən "Aslanın mahnısı" nı oxuyur.*

Mənim adım Aslandır, məni dinləyin. Hey!
Mənim adım Aslandır, məni dinləyin.
Aslanın nəğməsi düşsün dillərə.
Aslanın nəğməsi düşsün dillərə.

Mənim yarım Sevdadır, candan əzizdir.
Onu sevən ürəyim, çoşqun dənizdir.
İnsaf et, yoruldum, yol gözləməkdən,
Mən səni soruşdum, güldən çiçəkdən.

Mənim yarım Sevdadır, sevdalı gözəl.
Bizim doğma ellərin, maralı gözəl.
İnsaf et, yoruldum, yol gözləməkdən,
Mən səni soruşdum, güldən çiçəkdən.

1962-ci ildə Xalq yazıçısı Mirzə İbrahimovun ssenarisi əsasında rejissor Həbib İsmayılovun çəkdiyi "Böyük dayaq" filmində də F.Əmirovun musiqisi özəlliyi ilə bədii məzmuna xüsusi rəng qatır, hadisələrin gedişini daha da dolğunlaşdırır. Burada da məhəbbət mövzusuna geniş yer verilir. Maya ilə Qaraşın sevgisi lirik melodiyalarla verilir. Bu saf və ülvi məhəbbəti əks etdirən "Gecə keçdi" mahnısı Mayanın ifasında filmə əsl məhəbbət ovqatı gətirir.
*Musiqi məktəbinin şagirdi "Gecə keçdi" mahnısını ifa edir.*

Gecə keçdi, yuxu gəlmir gözümə,
Ürək baxmır, yenə baxmır sözümə,

Gah danışır, gah susuram,
Qəfəsdə bülbül kimi,
Çırpınır hey ürəyim

Pəncərəmdə, bir ulduzam yamyaşıl,
Səni heyran edib danışır,
Gah alışır, gah sönürəm,
Nədəndir, olur belə,
Yanır odsuz ürəyim?

**I Aparıcı:** Bəstəkar yaradıcılığı boyu uşaqları da unutmamış, onlar üçün uşaq mahnıları bəstələmişdir. Fikrət Əmirovun uşaqlar üçün bəstələdiyi "Bip-bipin nəğməsi", "Bizim həyət", "Odlar ölkəsi", "Qatar", "Quzum", "Bahar gəlir" mahnıları kiçik yaşlı musiqiçilər tərəfindən bağçalarda, musiqi məktəblərində sevə-sevə ifa edilir.
*Liseyin ibtidai sinif şagirdləri "Bip-bipin nəğməsi"ni ifa edirlər.*

Uçdu göylərə
Bizim peykimiz,
Söylədi yerə.
-Yol gedirik biz.
Bip-bip, bip-bip,
Göylər min rəngdir,
Burda ulduzlar
Gör nə qəşəngdir.

Günəşdən, Aydan
Salam var sizə,
Nəğmə deyirəm
Uşaqlar, sizə
Bip-bip, bip-bip,
Dərindir göylər,

Burda hər ulduz
Min nağıl söylər.

Uçuram Marsa
Dalımca baxın,
Ulduzlar mənə
Yaxındır, yaxın.
Bip-bip, bip-bip,
Gözləyin bir az,
Görüşərik biz
Darıxmaq olmaz.
Bip-bip, bip-bip!

*Ədəbi-bədii gecənin sonunda məktəblilər, sözləri Zeynal Cabbarzadənin, musiqisi Fikrət Əmirovun olan "Qatar" adlı mahnını ifa etmək üçün səhnəyə dəvət olunurlar.*

Qatar gəlir uzaqdan,
Taq-taq, taq-taq, taq-taq-taq.
Gözləyirəm bayaqdan,
Taq-taq, taq-taq, taq-taq-taq.
Tələs-tələs, ay qatar,
Yel kimi əs, ay qatar.

Yol gəldin gündüz, gecə,
Taq-taq, taq-taq, taq-taq-taq.
Ürəyim vurur necə,
Taq-taq, taq-taq, taq-taq-taq.

Atam gəlir səfərdən,
Gözləyirəm səhərdən.
Yaxınlaşır qatar, bax,
Taq-taq, taq-taq, taq-taq-taq.

Fikrət Əmirovun 95 illik yubleyi münasibətilə keçirilən tədbirlərdən biri də sənətşünaslıq üzrə fəlsəfi doktoru Səadət Təhmirazqızının tərtib etdiyi **"Fikrət Əmirov"** adlı kitabının təhlilidir. Tədbirdə kitabın müəllifi, lisey şagirdləri, musiqi məktəbinin müəllim və şagirdləri, jurnalistlər, sənət adamları iştirak edirlər. Tədbirin açılışında kitabxanaçı təqdim olunan monoqrafiya haqqında qısa məlumat verir:

**Kitabxanaçı:** Səadət Təhmirazqızının bəstəkarın həyat və yaradıcılığından bəhs edən *"Fikrət Əmirov"* adlı monoqrafiyası 2012-ci ildə çap olunub. Kitabda sənətkarın həyatı, yaradıcılığı, əsərlərinin təhlili, özünün xatirələri, dünya şöhrətli musiqiçilərin onun haqqında fikirləri geniş şəkildə işıqlandırılır. Kitab haqqında daha ətraflı məlumatı oxucular bizə təqdim edəcək.

*Oxucular səhnəyə daxil olurlar.*

**I oxucu:** Xalqımızın milli-mənəvi sərvətləri içərisində onun musiqi incəsənəti xüsusi yer tutur. Odur ki, xalq musiqisi maddi-mənəvi irsimizin ən vacib amillərindən biridir. Belə ki, əsrarəngiz gözəlliyi təbliğ edən musiqi daim xalqımızın ruhuna hopmuş və onun mənəvi dünyasında xüsusi yer almışdır.

Fikrət Əmirovun da xalq musiqisinə bağlılığını bu kitabda qeyd etməmək olmazdı. Bəstəkarın xalq musiqisinə bağlılığının əsas mənbəyi onun doğulub boya-başa çatdığı mühitdən, daha doğrussu, ailəsindən başlayır. Monoqrafiyada sənətkarın xalq mahnılarına bəstələdiyi musiqilərdən nümunələr verilir.

*Yuxarı sinif şagirdlərin ifasında "Qadan alım" mahnısı səslənir.*

Araz axır qiyğacı,
Ay qız, ay qız, ay qız, amandır,
Budur gəlir cüt bacı, qadan alım,
Biri mənim öz yarım,
Ay qız, ay qız, ay qız, amandır,
Biri başımın tacı, qadan alim.

Araz axır mil ilə,
Ay qız, ay qız, ay qız, amandır,
Dəstə-dəstə gül ilə, qadan alım,
Mən yarımı sevirəm,
Ay qız, ay qız, ay qız, amandır,
Şirin-şirin dil ilə, qadan alım.

Arazı ayırdılar,
Ay qız, ay qız, ay qız, amandır,
Su ilə doyurdular, qadan alım,
Mən səndən ayrılmazdım,
Ay qız, ay qız, ay qız, amandır,
Güc ilə ayırdılar, qadan alım.

**II oxucu:** "Əsl sənət əsərinin yaranmasını döyüş meydanında əldə edilən qələbə ilə müqayisə etmək olar. Yaradıcılıq cəbhəsində, əgər belə demək mümkünsə, böyük-kiçiklik yoxdur, sərkərdədən də, döyüşçüdən də eyni hünər və fədakarlıq tələb edilir. Sənət cəbhəsinin sadə bir əsgəri olmaq belə çox məsuliyyətlidir. Sənətkarlar öz həyatının mənasını, varlığını yaratdığı böyük sənətin saflığında, yüksəkliyində və xalqa xidmətində görməlidir. Belə yaradıcılar əsl mənada sənətkardır və onların qələmindən çıxan hər bir əsər ictimai həyatımızda mühüm bir hadisə olur". Əsl sənət əsərinin yaranması haqqında F.Əmirovun məqalələrinin birindən götürülmüş bu sərrast deyim bəstəkarın 1953-cü ildə tamaşaya qoyulmuş və yarım əsrdən çox bir müddətdə səhnə həyatını yaşayan "Sevil" operasına şamil edilə bilər. "Sevil" operasının təhlili kitabda geniş şəkildə verilir. Bu əsərdə yeni həyat, azadlıq uğrunda mübarizə Fikrət Əmirovun musiqisi ilə çox canlı, emosional və təsirli alınmışdı. Opera 1963-cü ildə böyük dirijorumuz Niyazinin rəhbərliyi ilə Moskvada ifa olunmuşdu. Eləcə də Səmərqənddə tamaşaya qoyulmuş, hətta ekranlaşdırılmışdır.

Operanın süjetinin mərkəzində XX əsrin əvvəllərində Azərbaycan qadınının taleyinin canlandırılması dayanır. Bununla belə, operanın ideyası bu gün də aktuallığını itirməmişdir. C.Cabbarlının öz pyesində canlandırdığı qadın azadlığı siyasi, ictimai-etik problemi, yeni ilə köhnənin, azadlıqla köləliyin mübarizəsi, Şərq qadınının taleyi ilə bağlı böyük ictimai hadisələr operada tam şəkildə təcəssüm olunur.

**III oxucu:** Kitabda Fikrət Əmirovun "Nəsimi dastanı", "Min bir gecə", "Nizami", "Şur" baletləri haqqında da geniş məlumat var. F.Əmirov "Nəsimi dastanı"nı belə səciyyələndirirdi: "Baletin əsasını Nəsiminin dərin, insani fikirləri, vüsal həsrətini ifadə edən poetik sözün qüdrəti haqqında, məhəbbət və onun ülviyyəti haqqında düşüncələri təşkil edir.

"Məndə sığar iki cahan, Mən bu cahana sığmazam", - deyən şairin bütün həyatı ədalətsizlik, despotizm və qəddarlığa qarşı mübarizə ilə fərqlənir. Azadlıqsevər ruhlu şeirləri bütün Şərqdə şöhrət qazanan Nəsimi çox amansızlıqla qətlə yetirilsə də, öz yaradıcılığı ilə ölməz sənətkar kimi tarixdə yaşayır.

Öz əsərlərində insan zəkasını təsdiq edən, insanı dünyanın yaradıcısı sayan müdrik şairin obrazını canlandıran vokal-xoreoqrafik poemada xeyir və şərin mübarizəsi, məhəbbətin təntənəsi təcəssüm olunur.

Tamaşanın konsepsiyası ümumiləşdirilmiş obrazlarda öz əksini tapır: Bahar – saflıq, şənlik, ədalətin rəmzi, sevgili – şairin həyatının mənası, qara qarğalar – şairi izləyən şər qüvvələrdir. Tamaşa çox maraqlı bir tərzdə birdəfəlik kuliminasiyadan başlanır – Nəsimi edam olunur. Səhnədə böyük bir dar ağacı qoyulur. Zəncirlənmiş şairin ətrafında qırmızı geyimli cəlladlar hökmü icra etmək üçün vəhşicəsinə rəqs edirlər. Edam yerinə yetirilirkən səhnədə bütün işıqlar söndürülür və yalnız Nəsiminin üzərinə işıq salınır. Nəsiminin monoloqunda zəmanənin ağırlığı, xoşbəxtliyin itirilməsi, amma bununla yanaşı, həm də işıqlı arzuların gözəl dünyası təcəssüm olunur.

Dar ağacı yox olur və baharın rəmzi olan pannonun fonunda şairin və sevgilisinin dueti səslənir.

**IV oxucu:** Simfonik musiqi janrı Fikrət Əmirov yaradıcılığının xüsusi bir şaxəsini təşkil edir. O, bu janrda müxtəlif səpkili əsərlər yazıb. Hansı ki, həmin əsərlər milli simfonizmin ilk incilərindəndir. Onun ilk simfonik əsərlərinə 1943-cü ildə yazdığı "Böyük Vətən müharibəsi qəhrəmanlarının xatirəsinə" simfonik poema, 1947-ci ildə dahi Nizami Gəncəviyə həsr etdiyi "Nizami" simfoniyası kimi möhtəşəm musiqi nümunələri daxildir.

"Nizami" simfoniyası dörd hissədən ibarətdir. Əsərin quruluşu, hissələrin bir-biri ilə vəhdəti, emosional baxımdan ayrı-ayrı hissələrin təcəssümü və bütün bunların musiqi dili ilə ifadə edilərək dahi şair Nizami obrazını canlandıra bilməsi müəllifin yüksək peşəkarlığının ifadəsidir.

Bəstəkar əsərdə Nizaminin obrazını dolğun şəkildə yaratmağın məntiqi yolunu şairin misraları ilə təcəssüm etdirərək çox uğurlu nəticə əldə edir. Belə ki hər hissənin əvvəlində ulu şairin poeziyasından nümunələr səslənərək bəstəkarın musiqisi ilə üzvi şəkildə qovuşur.

*Oxucu əsərin I hissəsindəki epiqrafı söyləyir.*

Şeiri oxunanda bu Nizaminin,
Özü də görünür hər sözdə, yəqin.
Gizlənib özünü verməz ki, nişan,
Sənə hər beytində bir sirr danışan.
Min il sonra sorsan: "Bəs o hardadır?"
Hər beyti söyləyər: "Burda, burdadır!"

**V oxucu:** F.Əmirovun yaradıcılığında Azərbaycan mövzusu xüsusi yer tutur. "Azərbaycan" simfonik süitası, "Azərbaycan kapriççiosu" və "Azərbaycan qravürləri" bəstəkarın yaratdığı bir-birinə bənzəməyən, bir-birindən daha gözəl, daha kamil və musiqi mədəniyyətimizi zənginləşdirən möhtəşəm sənət

əsərləridir. Bütün bü əsərlərdə xalq ruhunun, xalqın düşüncə və arzularının təcəssümünü görürük. Və xalqın tarixi keçmişi, qəhrəman övladları, dahi sənətkarları, Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsi, xoşbəxt gələcəyi haqqında söz açan, vətənini ürəkdən sevən xalqın sənətkar oğlunun vətəndaşlıq pafosu ilə dolu səsini eşidirik. Əsər Səməd Vurğuna həsr olunmuşdur.

Xalq musiqisinə daim istinad edən, onu müxtəlif forma və janrlarında təcəssüm etdirən bəstəkar 1950-ci ildə dördhissəli "Azərbaycan" simfonik süitasını yazır.

Birinci hissə - "Gənclik, gözəllik", ikinci hissə -"Çoban-bayatı", üçüncü hissə - "Kəndimizdə", dördüncü hissə - "Nəğməmsən, Bakı" adlanır. Birinci hissə aşıq musiqisinin ritmləri üzərində qurulur, çox dinamik və canlıdır. İkinci hissə peyzaj lövhəsidir, lirik məzmunludur, burada muğam cizgiləri nəzərə çarpır. Üçüncü hissə-yallı rəqsini xatırladır. Son hissə-marş xarakterli olub, Bakı şəhərinin şərəfinə himndir. Süitadakı sırf milli xarakterli melodiyalar, zəngin orkestrləşdirmə dahi Səməd Vurğunun şeriyyətindən ilhamlanaraq qələmə alınmışdır.
**VI oxucu:** Fikrət Əmirovun yaradıcılığında vokal musiqisinin də xüsusi yeri və əhəmiyyəti var. Belə ki, bəstəkar öz yaradıcılığında vokal janra da geniş yer vermiş və digər janrlarda da onun xüsusiyyətlərindən istifadə etmişdir.

Bəstəkar, əsasən, vokal musiqisinin mahnı və romans janrına müraciət etmişdir. Bu istiqamətdə də çox böyük uğurlar qazanmışdır. Çünki F.Əmirov gözəl melodiyalar yaradıcısı idi. Mahnı üçün də melodiya ən vacib şərtlərdəndir. Başqa janrlarda olduğu kimi, vokal musiqidə də xalq melodiyalarından bəhrələnən bəstəkar bu üslubda ifadə vasitələrindən bacarıqla istifadə etməyə nail olmuşdur.

Fikrət Əmirovun yaradıcılıq irsinin əsas qayəsini vətənpərvərlik mövzusu təşkil edir. Bu bəstəkarın mahnıları üçün də çox səciyyəvidir. Mirvarid Dilbazinin sözlərinə "Azərbaycan elləri" mahnısı da məhz bu mövzuda yazılıb.

Yüksək vətən məhəbbətini bəstəkar öz lirik düşüncələri ilə tərənnüm edir. Vətənin şad günündə xalqın mütəşəkkilliyi ilə bir bayraq altında qovuşan müqəddəs Azərbaycan ellərinin xoş rifahından bəhs edən bu mahnı hər zaman aktualdır.

Bəstəkarın vətənini daim şad və firavan görmək istəyi onun Teymur Elçinin sözlərinə "Gülür ellər" mahnısında da tərənnüm olunur.

*Məktəb şagirdləri "Gülür ellər" mahnısını səsləndirirlər.*

Bayram gəlir elimə, elimizə,
Nəğmə düşür dilimə, dilimizə,
Könlüm gülür, elim gülür, gülür gözəl diyarım,
Çalır tarı, çalır sazı, gülür ellər, gülür.

Hər yan gül-çiçək, əlvan gül-çiçək, gül çiçək…
Könlüm gülür, elim gülür, gülür gözəl diyarım,
Çalır tarı, çalır sazı, gülür ellər, gülür.

Zəhmət çəkib hünərlə min bir əllər
Xonça tutub el üçün qız-gəlinlər
Könlüm gülür, elim gülür, gülür gözəl diyarım,
Çalır tarı, çalır sazı, gülür ellər, gülür.

Kitabxanada bəstəkar haqqında çəkilmiş **"Mən səni araram"** sənədli televiziya filminin müzakirəsi keçirilə bilər. Tədbirə kino haqqında maraqlı məlumatlar vermək üçün filmin qurluşcu rejissoru, Əməkdar incəsənət xadimi Arif Qazıyevi və digər film heyətini dəvət etmək olar. Bu film haqqında qısa məlumata keçid alaq:

Rejissor : Arif Qazıyev, Ssenari müəllifi : Eldar İsgəndərzadə, Operator : Adil Abbasov, Səs rejissoru: Firudin Bağıroğlu olmuşdur. Film bioqrafik janrında, Azərbaycan dilində, Azərbaycanda 2006-ci ildə çəkilmişdir. Filmdə Fikrət Əmirovun bacısı-Şəfiqə Əmirova, Ərəstun Xəlilov, qızı-Sevil Əmirova, nəvəsi-Nəzrin, Azərbaycan Xalq artisti-İlhamə Quliyeva

bəstəkarla bağlı xatirələrindən danışırlar. Tədbirin sonunda şagirdlər sözləri Tələt Əyyubova, musiqisi isə Fikrət Əmirova məxsus olan "Mən səni araram" mahnısını ifa edirlər.

Hər gecə səni mən sələdim,
Yolunu sühbədək gözlədim.
Eşq odu məni, yar, yandırar,
Rəhm elə, yamandır intizar...
Eşq odu məni, yar, yandırar,
Rəhm elə, yamandır intizar...

Göz yaşım sel olar, ah sənsiz...
Bülbüləm neyləyim, çəmənsiz?
Bəs hanı, hanı yar, o sevda?
Gör nələr, nələr var başımda...
Bəs hanı, hanı yar, o sevda?
Gör nələr, nələr var başımda...

Bir günəş nuru var üzündə,
Gözlərin hər zaman gözümdə.
Mən səni araram, anaram,
Gül-çiçək sanaram, sanaram.
Mən səni araram, yar anaram,
Gül-çiçək sanaram, sanaram.

Kitabxanada Fikrət Əmirovun yaradıcılığı ilə bağlı keçirilən maraqlı tədbirlərdən biri də mahnı müsabiqəsidir. Müsabiqə kitabxananın "Nağıl otağı"nda, liseyin ibtidai sinif şagirdləri arasında təşkil oluna bilər. Mahnını ən yaxşı ifa edən oxucu kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılır. Səsləndirilən mahnılardan bir neçəsini sizə təqdim edirik.

## Quzum

Bir quzum var rəngi ala,
Quzum oxşar marala.
Ayrı düşsə mələr quzum,
Tükləri məxmər quzum.
Hər gün səhər səsləyirəm,
Quzum deyə, mən onu.
Yedirirəm, çimdirirəm,
Bəsləyirəm mən onu.
Bir quzum var rəngi ala.
Quzum oxşar marala.

Çağıranda, ala quzum,
Dönür dala tez quzum.
Mənim qəşəng bala quzum,
Mənim qara göz quzum.
Yata bilmirəm gecələr.
Yuxum qaçır gözümdən.
Deyirəm tez açıl səhər,
Quzumu tez görüm mən.
Bir quzum var rəngi ala,
Quzum oxşar marala.

## Bizim Həyət

Bizim həyətdə
Yüz uşaq var.
Bir-birini
Çox sevir onlar.
Böyük meydandır
Bizim həyət,
Qaynar qazandır
Bizim həyət.

**Nəqarət:**

Bax, bax, nə gözəldir
Bizim həyət.
Gəl, bax nə gözəldir
Bizim həyət.

Uca evləri
Nə göyçəkdir,
Onun dörd yanı
Gül-çiçəkdir.
Gömgöy dənizdir
Bizim həyət
Hər vaxt təmizdir
Bizim həyət.

**Nəqarət:**

Dərsdən, bağçadan
Gələndə biz,
Gülür, oynayır
Həyətimiz.
Qoşur nəğmələr
Bizim həyət,
Hər gün, hər səhər
Bizim həyət.

**Ədəbiyyat siyahısı**


***Haqqında***

Fikrət Əmirov // Azərbaycan musiqi dünyası = Azerbaijan music world = Luminaries of Azerbaijan arts : Azərbaycan incəsənətinin korifeyləri. - Bakı : Nurlar, 2001. – S. 37.

Fikrət Əmirov : Biblioqrafiya. - Bakı : Çinar-Çap, 2009. - 271 s. - (Azərbaycanın Görkəmli Şəxsiyyətləri).

Rza R. Fikrət Əmirov haqqında // Seçilmiş əsərləri. 5 cilddə. - Bakı : Öndər, 2005. – C.5. - S. 223-226.

Rza, X. Fikrət ƏImirovun mahnıları : məqalə // Gəl, ey səhər. - Bakı : Nağıl evi, 2004. - S. 19-21. - Məqalədə F.Əmirovun ayrı-ayrı tamaşalara yazdığı mahnıların mətni də verilmişdir.

Təhmirazqızı S. Fikrət Əmirov. - Bakı : Aspoliqraf, 2012. - 400 s. : foto, rəngli foto, not.

***Dövri mətbuatda***

**Abbaslı T.** Layla-bayatı simfoniyalı... : eyzən tufan coşğulu, atom təlatümlü, hərdən də bəmi-ahəstə bəstələr bəstəkarı - Fikrət Əmirov // Mədəniyyət. - 2016. - 18 noyabr. - № 88. - S. 12.

**Abbaslı T.** Ümumbəşər fitrətli, dünya şöhrətli Fikrət : bu cavan Amerika salonu qocaman Şərq xəyalatına dalmışdı... // Mədəniyyət. - 2011. - 25. 11. - № 87. - S. 7.

**Abbaslı T.** Ümumhalət sənətkarı... : Fikrət Əmirov - 90 // Mədəniyyət. - 2012. - 21 noyabr. - № 84. - S. 7.

**Allahverdiyev V.** Fikrət Əmirovun fortepiano üçün yazdığı 12 miniatür məcmuəsində milli üslub keyfiyyətləri // Mədəni Maarif. - 2011. - № 1. - S. 63--65.

**Azəri L.** Məmməd Səid Ordubadi və musiqi // Mədəniyyət. - 2012. - 19 dekabr. - № 92. - S. 13.

**Babayev A.** Son görüş : Fikrət Əmirov // Mədəni Həyat. - 2013. - avqust. - № 8. - S. 61, 62.

**Belarus səhnəsində əsrarəngiz** "Min bir gecə" : Fevralın 16-da Belarus dövlət Akademik Musiqili Teatrında Azərbaycan bəstəkarı Fikrət Əmirovun "Min bir gecə" baletinin ilk tamaşası olub // Mədəniyyət. - 2014. - 19 fevral. - № 13. - S. 8.

**Fərəcov S.** Bəstəkar yaradıcılığının kəhkəşanı : Fikrət Əmirov // Mədəniyyət. - 2012. - 2 noyabr. - № 79. - S. 10.

**Fikrət Əmirov (1922-1984)** // Savalan. - 2016. - 4-6 oktyabr. - № 42. - S. 2.

**Xəlilzadə F.** Açılan səhərin şəfəqləri : Fikrət Əmirov - 90 // Azərbaycan. - 2012. - 22 noyabr. - № 260. - S. 6.

**Xəlilzadə F.** Bəşər mədəniyyətinin inciləri : Şuşanın işğalından 20 il ötür : Əbədiyaşar ömürlər // Azərbaycan. - 2012. - 21 aprel. - № 86. - S. 7.

**Onun əsərləri... göstərir** ki, bu insanda milli duyğiular nə qədər yüksək səviyyədə idi : [sentyabrın 19-da Fikrət Əmirovun xatirəsinə ucaldılmış abidənin açılışı olmuşdur] // Ədəbiyyat qəzeti. - 2011. - 23 sentyabr. - № 35. - S. 1-2.

**"Sevil" operası yaşayır** və yaşayacaqdır : Azərbaycan Prezidenti Heydər Əliyev Akademik Opera və Balet teatrında əsərin yeni quruluşda ilk tamaşasına baxmışdır // Ədəbiyyat qəzeti. - 2013. - 9 may. - № 17. - S. 4-5.

**Səməd M.** Azərbaycan xalq mahnıları : Fikrət Əmirov // Ədəbiyyat qəzeti. - 2012. - 4 avqust. - № 29. - S. 2,6.

**Vəfalı A.** Yazmaya bilmədim : Fikrət Əmirov haqqında xatirələr // Ədəbiyyat qəzeti. - 2012. - 5 may. - № 16. - S. 1.

**Vəfalı A.** Yazmaya bilmədim : Heydər Əliyev və Fikrət Əmirov // Ədəbiyyat qəzeti. - 2013. - 9 may. - № 17. - S. 5.

**Zərbəliyev C.** Musiqi kəhkəşanının parlaq ulduzu // Mədəniyyət. - 2012. - 23 noyabr. - № 85. - S. 2.

***Bəstəkara həsr olunmuş şeirlər***

**Bayram T.** Fikrət Əmirovun xatirəsinə : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 148-150.

**Səfərli İ.** Şirmayı dillər : bəstəkar Fikrət Əmirova : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 175-176.

# Milli sərvətimiz-Fikrət Əmirov

## (metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 38
Çapa imzalanmışdır:15.09.2017
Tirajı:100
Pulsuz